# Ölkə turizmi inkişaf yolunda...

Dünya Turizm Günü münasibətilə nazirliyimizin təşkilatçılığı ilə "Fairmont Baku" hotelində konfrans keçirilmişdir. Tədbiri turizm şöbəsinin turizmin marketinqi və təbliğatı sektorunun müdiri Vüqar Şıxməmmədov açaraq, bu günün dünyanın 150-dən çox ölkəsində qeyd edildiyini diqqətə çatdırmışdır. Bildirilmişdir ki, Azərbaycanda da Dünya Turizm Günü çeşidli tədbirlərlə yadda qalır.

Sonra BMT-nin Dünya Turizm Təşkilatının baş katibi Taleb Rifainin əlamətdar gün münasibətilə videomüraciəti təqdim olunmuşdur. Burada Dünya Turizm Gününün bu il "Turizm və su resursları: ümumi gələcəyimizin qorunması" şüarı altında qeyd edildiyi diqqətə çatdırımış, su ehtiyatlarının qorunmasına dair keçirilən beynəlxalq tədbirlərə turizmin verə biləcəyi töhfələrdən söz açılmışdır.

Konfransda çıxış edən mədəniyyət və turizm naziri Əbülfəs Qarayev bildirmişdir ki, bu gün Azərbaycan Dünya Turizm Təşkilatının fəal üzvlərindən biridir və ölkəmizdə turizmlə bağlı hər hansı tədbir, layihə həyata keçirilirsə, beynəlxalq birliyin və nüfuzlu qurumların diqqət mərkəzində olur: "2001-ci ildə Gənclər, İdman və Turizm Nazirliyi yaradıldıqda ulu öndər Heydər Əliyevin təqdimat məktubu ilə ölkəmiz Dünya Turizm Təşkilatının üzvlüyünə qəbul edildi. O vaxta qədər dünya turizmində baş verən proseslər Azərbaycandan yan keçirdi, ölkəmiz bu sahədə beynəlxalq layihələrə qoşulmurdu.

Ümummilli liderin diqqət və qayğısı sayəsində ölkəmizin dünya turizminə inteqrasiyası başlandı, "Turizm haqqında" qanun qəbul olundu, sahənin inkişafı ilə bağlı tədbirlər həyata keçirildi. Sonrakı illərdə möhtərəm Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində Azərbaycan turizm sahəsində sürətli inkişafa nail oldu, beynəlxalq miqyasda nüfuzu artdı.

Bu günlərdə Dünya Turizm Təşkilatının Zambiyanın Livinqston şəhərində keçirilən 20-ci Baş Assambleyasında ölkəmiz qurumun İcraiyyə Şurasına qəbul edildi. Azərbaycan Avropa qitəsindən quruma üzv seçilən 4 ölkə sırasında (Azərbaycan, Almaniya, Serbiya və Bolqarıstan) 25 səslə birinci oldu.

Həmçinin Dünya Turizm Təşkilatının Avropa Komissiyasının 2014-cü ildə növbəti iclasının Bakı şəhərində keçirilməsinə dair qərar qəbul edildi. Bu, onun göstəricisidir ki, Azərbaycanda turizmin inkişaf konsepsiyası, onun istiqaməti, ölkə rəhbərliyinin bu sahəyə göstərdiyi diqqət, turizmin qeyri-neft sektorunun güclü bir sənayesinə çevrilməsi istiqamətində həyata keçirilən siyasət beynəlxalq qurumlar tərəfindən də izlənir və təqdir olunur.

Biz bu gün fərəhlə vurğulamalıyıq ki, Azərbaycan Dünya Turizm Təşkilatı İcraiyyə Şurasının üzvü kimi növbəti dörd ildə dünyada turizm proseslərində öz sözünü deyə, nüfuz və təsirini göstərə biləcək".

Nazir onu da diqqətə çatdırmışdır ki, indiyədək ölkəmizdən üç təşkilat (Azərbaycan Turizm Assosiasiyası, Bakı Turizm İnformasiya Mərkəzi və Azərbaycan Turizm İnstitutu) DTT-də qoşulmuş üzv kimi təmsil edilirdi. Bu il Azərbaycandan daha 17 turizm qurumu Dünya Turizm Təşkilatının assosiativ üzvləri sırasına daxil olub. Azərbaycan Turizm Assosiasiyası İdarə Heyətinin sədri Dünya Turizm Təşkilatına qoşulmuş üzvlər Şurasının Avropa üzrə vitse-prezidentidir: "Təbii ki, Dünya Turizm Təşkilatına assosiativ üzv olmaq böyük işdir. Bunun üçün müxtəlif mərhələlərdən keçmək, bu qurumun tələblərinə cavab vermək lazımdır. Bu gün assosiativ üzvlərinin sayına görə Dünya Turizm Təşkilatında birinci yeri İspaniya, ikinci yeri Azərbaycan, üçüncü yeri isə Braziliya tutur. Bu, o deməkdir ki, Azərbaycan artıq bu sahədə öz sözünü deyir və ölkəmizin turizmi quruma üzv olan ölkələrdə kifayət qədər geniş təbliğ oluna biləcək".



Ölkədə turizmin inkişaf göstəricilərindən danışan nazir qeyd etmişdir ki, bu ilin 6 ayının nəticələrinə görə, dünyada turist sayı 3-4 faiz, Azərbaycanda isə 9,9 faiz artmışdır: "Bu, rəqəmlə 1 milyon 196 min nəfərdir. Müqayisə üçün deyək ki, bu qədər turist 5 il bundan əvvəl ölkəmizə bir il ərzində gəlirdi.

Azərbaycanda daxili turizmin inkişaf tempi də sürətlə artır. Cənab Prezident bölgələrə hər səfərində yeni infrastruktur obyektlərinin, yolların, hotel və istirahət mərkəzlərinin açılışında iştirak edir".

Dünya Turizm Gününün bu il "Turizm və su resursları: ümumi gələcəyimizin qorunması" şüarı altında qeyd edildiyini xatırladan nazir son illər ərzində Azərbaycanın rayonlarının, Bakı şəhərinin su ilə təmin olunması istiqamətində böyük layihələr həyata keçirildiyini bildirmişdir: "Bunun özü də turizm infrastrukturunun qurulması istiqamətində görülən vacib işlərdəndir".

Daha sonra Əbülfəs Qarayev yay mövsümü ilə bağlı nazirlik tərəfindən həyata keçirilən monitorinqlərin nəticələrindən danışmışdır. Qeyd edilmişdir ki, bu il ilk dəfə daha mütəşəkkil şəkildə, beynəlxalq ekspertlərin tövsiyələri əsasında xüsusi bir monitorinq həyata keçirilmişdir: "Nəticələr onu göstərir ki, bəzi hotellərin sahibləri öz işlərini kifayət qədər məsuliyyətlə görmür. Ona görə də 4 hotelin lisenziyası dayandırıldı, 40-a qədər hotelə isə xəbərdarlıq məktubu göndərildi. Hesab edirəm ki, bu tədbirlər zəruridir. Çünki özümüzə tələbkar olmasaq, heç bir uğur əldə edə bilmərik".

Natiq vurğulamışdır ki, hazırda Azərbaycanda 516 hotel fəaliyyət göstərir: "Yaz mövsümü zamanı həftəsonu bütün hotellər müştəri ilə dolur. Onlarda xidmətin keyfiyyəti yüksək olmalıdır. Onda daha çox müştəri əldə edərlər.

Bu ildən ölkə başçısının sərəncamı ilə Azərbaycana gələn turistlərə elektron vizanın verilməsinə başlanmışdır. Bu işi 30 turizm şirkəti həyata keçirir. İlin sonunda bu siyahıya yenidən baxılacaq. Cari ildə həmçinin Azərbaycanda Konqres Bürosu yaradılmışdır. Bu qurum ölkəmizdə keçirilən beynəlxalq tədbirlərin təşkilini koordinasiya edəcək, miqyasını genişləndirəcək".

Nazir bildirmişdir ki, Azərbaycanda artıq üç böyük turizm zonası formalaşmışdır: Qəbələ, Qusar və Naftalan. Bu zonalar ətraf rayonları da əhatə edir: "Dünya Turizm Təşkilatı Lənkəran-Masallı, Gədəbəy-Şəmkir və Aran zonasında turizmin inkişafı ilə bağlı xüsusi proqramlar hazırlayıb tətbiq edəcək. Naxçıvan istiqamətində də belə bir proqram mövcuddur.

İşğal olunmuş rayonlarımızı da unutmaq olmaz. Çünki bu rayonların turizm baxımından olduqca böyük perspektivləri var. Əminəm ki, ölkə Prezidentinin uğurlu siyasəti nəticəsində tezliklə

işğal altındakı rayonlarımız azad ediləcək və bu torpaqlarda quruculuq işləri başlanacaq.

Bir sözlə, bu gün Azərbaycan turizmi uğurlu inkişaf yolundadır. Mən bu bayram münasibətilə bütün turizm ictimaiyyətini ürəkdən təbrik edirəm".

■

Sonra "Azərbaycan Respublikası Prezidentinin 10 illik fəaliyyəti zamanı turizmə göstərdiyi qayğı" mövzusunda "Azerbaijan review" jurnalının təqdimatı keçirilmişdir. Jurnalın son nömrəsində dərc edilmiş məqalələr barədə konfrans iştirakçılarına ətraflı məlumat verilmişdir.

Mədəniyyət və turizm nazirliyi turizm şöbəsinin müdiri Aydın İsmiyev ölkəmizdə turizmin inkişafı istiqamətində son bir il ərzində görülən işlərdən danışmışdır. O, bölgələrdə fəaliyyət göstərən turizm obyektlərində mədəniyyət və turizm, iqtisadi inkişaf və səhiyyə nazirliklərinin əməkdaşları tərəfindən həyata keçirilən monitorinqin nəticələri barədə məlumat vermişdir.

Onun sözlərinə görə, monitorinq ölkənin 38 rayonunu əhatə etmişdir: "Bu rayonlarda ümumi vəziyyəti qənaətbəxş hesab etmək olar. Lakin yay mövsümü öncəsi marketinq və reklam işinin düzgün qurulmaması obyektlərdə illik dolum səviyyəsini xeyli aşağı (təqribən 30%) salır. 2011 və 2012-ci illərdə regionlardakı mehmanxanalarda təqdim olunan qiymətlərdə nisbətən enmə müşahidə olunmuşdu, bu mövsüm isə qiymətlər ötən illə eyni səviyyədə qalıb".



Şöbə müdiri bir sıra obyektlərdə nöqsanların aşkar edildiyini, onların haqqında qanuna müvafiq surətdə tədbirlər görüldüyünü diqqətə çatdırmışdır.

■

Şöbə müdiri nazirlik tərəfindən ölkə turizminin təbliği istiqamətində görülən işlər, o cümlədən beynəlxalq turizm sərgilərində iştirak, müxtəlif ölkələrin turizm təmsilçilərinin ölkəmizə səfərləri, xarici telekanallarda Azərbaycan haqqında reklam roliklərinin nümayişi və s. haqqında danışmışdır.

Vurğulamışdır ki, il ərzində Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının "MTV" televiziyasının, Türkiyənin "Beyaz TV" və "World Travel Channel" televiziyalarının, Yaponiyada fəaliyyət göstərən "İSHİİ qardaşları" şirkətinin, Belçikanın "Glocal Communications SPRL" şirkətinin nümayəndələri üçün ölkəmizə pressturlar təşkil edilmişdir.

Həmçinin "Şahdağ" Qış-Yay Turizm Kompleksi barədə filmin hazırlanması üçün nazirliyin dəvəti ilə ABŞ-ın "Orion Strategies" şirkəti tərəfindən ölkəmizdə çəkilişlər aparılmışdır.

Bu dövrdə Almaniyanın, Avstriyanın, Küveytin, İtaliyanın, Rusiyanın və Ukraynanın aparıcı turizm şirkətlərinin nümayəndələri üçün nazirliyimiz tərəfindən ölkəmizə infoturlar təşkil olunmuşdur. Cari ildə Azərbaycanın turizm potensialını əks etdirən reklam çarxları "CNN", "Euronews", "TV5 Monde", "France 24", "TV Berlin" kimi nüfuzlu kanallarla yanaşı, Rusiya telekanallarında da nümayiş etdirilmişdir.

■

Azərbaycan Turizm İnstitutunun rektoru Cəfər Cəfərov təhsil ocağının əldə etdiyi uğurlardan, görülən işlərdən danışmışdır. Bildirmişdir ki, ATİ-də hazırda 11 ixtisas üzrə bakalavr proqramında 1710 nəfər, 15 ixtisas üzrə magistraturada 143 nəfər, üç ixtisas üzrə ikinci ali təhsildə 18 nəfər, doktoranturada 38 nəfər, ATİ-nin nəzdindəki peşə məktəbində 12 ixtisas üzrə 500 şagird təhsil alır: "ATİ-də 2008-ci ildən sertifikat proqramları həyata keçirən Təlim Mərkəzi fəaliyyət göstərir. Bu proqramları indiyədək turizm bələdçisi ixtisası üzrə 33, hotellərdə ön büro proqramı üzrə 56 və turoperator və turagent ixtisası üzrə 42 nəfər bitirib.

2010-cu ildə ilk məzun buraxılışını keçirən ATİ-ni ötən müddətdə 12-si magistr olmaqla, 725 nəfər bitirib. Onlardan 72 nəfəri ATİ ilə yanaşı, Avstriyanın Krems Universitetinin də diplomuna sahib oldu.

Məzunlar öz təşkilatlarını - ATİ-nin Məzunları Cəmiyyətini yaradıblar və öz fəaliyyətlərini quran zaman bizimlə əməkdaşlığı da unutmurlar. Bu gün məzunlarımızı ölkəmizdəki əksər turizm müəssisələrində görə bilərik".

■

Azərbaycan Turizm Assosiasiyası İdarə Heyətinin sədri Nahid Bağırov çıxışında qeyd etmişdir ki, ölkəmizin DTT-nin İcraiyyə Şurasına üzv seçilməsi və qurumun Avropa Komissiyası iclasının 2014-cü ilin aprel ayında Bakıda keçirilməsinə dair qərarın qəbul olunması Azərbaycanda turizmin inkişafına verilən qiymətdir: "AZTA İdarə Heyətinin sədri DTT-yə Qoşulmuş üzvlər Şurasının Avropa üzrə vitse-prezidenti seçilməsi də ölkəmizin turizm sektorunun nailiyyətidir.

Seçki zamanı 40-a yaxın namizədin içərisindən AZTA ən çox səs üstünlüyü ilə qalib gəldi. Bu bir daha göstərir ki, ölkə Prezidentinin səyi, tövsiyələri, qəbul etdiyi qərarlar nəticəsində Azərbaycan qısa bir müddətdə dünyanın aparıcı turizm ölkələri ilə rəqabət apararaq, tanınmış turizm mərkəzlərindən birinə çevrilir".

"SW travel" turizm şirkətinin direktoru Şirzad Əfəndiyev, "Jumeirah Bilgah Beach" mehmanxanasının baş meneceri Mete Atakuman rəhbərlik etdikləri müəssisələrin fəaliyyətindən, Azərbaycanda turizmin inkişafına yaradılan münbit şəraitdən danışmışlar.

Konfransda Avropa İttifaqının tvinninq layihəsinin "Nailiyyətlər və perspektivlər" adlı təqdimatı da maraqla qarşılanmışdır. Layihə rəhbəri Florian Sengştmid bildirmişdir ki, birinci komponent çərçivəsində turizm şöbəsinin funksional dəyişiklikləri əks etdirən təşkilati strukturu hazırlanmış və Azərbaycanı marketinq və kommunikasiya sahəsində peşəkar turizm istiqamətinə çevirmək məqsədilə nazirliyə biznes proseslərinin hazırlanması ilə bağlı təkliflər təqdim olunmuşdur.

İkinci komponent çərçivəsində isə qanunvericiliyə aid olan məsələlərdən əlavə, mehmanxanalar, restoranlar, turoperatorlar və səyahət agentlikləri üçün minimal standartların yaradılması zərurəti ilə bağlı işlər görüləcək.

■

Tədbirdə Azərbaycanın turizm sektorunda çalışan və öz fəaliyyəti ilə bu sahənin inkişafına töhfələr verən bir sıra əməkdaş nazirliyin "Fəxri turizm işçisi" döş nişanı və fəxri fərmanları ilə təltif edilmişdir. Tanınmış bələdçi Asiya Şirəliyeva, AZTA sədrinin müşaviri Müzəffər Ağakərimov, "SW travel" turizm şirkətinin direktoru Şirzad Əfəndiyev, Azru.tv saytının yaradıcısı və rəhbəri Azər Qəribov, "Gilan turizm" şirkətinin direktoru Xəlil Duru "Fəxri turizm işçisi" döş nişanına, Bakı Turizm İnformasiya Mərkəzinin direktor müavini Bəxtiyar Qılıncov, Masallı Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Lətifə Mövsümova, Qəbələ Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Nargilə Qafarova, Qusar Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Davud İbrahimxəlilov, "İmprotex travel" şirkətinin aparıcı meneceri İlham Süleymanov isə Fəxri fərmana layiq görülmüşdür.

Sonra Bakı Turizm İnformasiya Mərkəzi tərəfindən keçirilən IV Milli Turizm Mükafatı sahiblərinə təqdim edilmişdir.

Həmçinin Dünya Turizm Günü ilə bağlı "İnfotour.az" portalı ilə Azərbaycan Turizm Assosiasiyasının birgə təşkil etdiyi "Azərbaycan və dünya ölkələri turizm sektoru təmsilçilərinin gözü ilə" mövzusunda fotomüsabiqənin qalibləri mükafatlandırılmışdır.

Bildirilmişdir ki, müsabiqəyə təqdim olunan 250-dən çox foto Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Turizm Assosiasiyası, "İnfotour.az" portalı, Azərbaycan Fotoqraflar Birliyinin nümayəndələrindən ibarət münsiflər heyəti tərəfindən seçilmişdir. 100 foto seçilərək hotelin foyesində sərgilənmişdir.

**Qalan şəkillər isə slayd-şou vasitəsilə nümayiş etdirilmişdir. Müsabiqədə 3-cü yerə "Atropat" hotelinin əməkdaşı Dilarə Ağaəliyeva, 2-ci yerə "Caspian Breeze Travel" şirkətindən Rüfət Hacıyev, 1-ci yerə "Ata travel" şirkətindən Ərtoğrul Qafarov layiq görülmüşdür. Qaliblərə diplom və pul mükafatı təqdim olunmuşdur...**

**E.RƏHMANOĞLU**